# Our Compass

Ericsson Code of Business Ethics

ERICSSON

# Prezident və Baş İcraçı Direktorumuzdan müraciət

150 ildir ki, bizim rəhbər prinsiplərimiz eynidir: rabitə şəbəkələrini qlobal miqyasda qurmaq və saxlamaq, insanları və icmaları təhlükəsiz şəkildə birləşdirərək daha yaxşı bir dünya yaratmaq. Sənayedə əsl lider olaraq qalmaq üçün biz həm texnologiyada, həm də fəaliyyət tərzimizdə lider olmalıyıq. Biz qaydalara əməl edərək, Ericssonun maraqları naminə fəaliyyət göstərərək qazanmaq üçün rəqabət aparırıq.

Biz dünyanın hər yerində sərt rəqabətlə üzləşirik. Əməksevərlik və innovasiya sayəsində sənaye lideri kimi mövqeyimizi qazanmışıq. Bu gün telekommunikasiya cəmiyyətimiz üçün həyati əhəmiyyət daşıyır, buna görə də işimiz bütün maraqlı tərəflərimiz və özümüz qarşısında böyük məsuliyyətlə müşayiət olunur. Dəfələrlə qeyd etdiyim kimi, sənaye lideri olmaq təkcə mükəmməl həllər təqdim etmək deyil – bu, həm də əməli mükəmməllik, müxtəlif baxışların nəzərə alınması və etika və dürüstlüyə güclü sadiqlik tələb edir. Bizim həllərimiz və fəaliyyət tərzimiz xeyirxahlıq üçün bir qüvvədir.

Biznes Etikasının Kodeksi (CoBE) bizim üçün əsas dayaqdır, o, bizi istiqamətləndirir və mədəniyyətimizi, işimizi necə aparmalı olduğumuzu müəyyən edən aydın gözləntilər və tələblər qoyur. Açıq şəkildə demək istəyirəm: hamı CoBE-ni oxumalı və başa düşməlidir. Əgər sizə hər hansı hissə çətin və ya qeyri-müəyyən görünürsə, menecerinizə və ya uyğunluq (compliance) üzrə məsul şəxsə müraciət edin. Ən əsası, CoBE-nin "çox məhdudlaşdırıcı" olduğunu düşünənlər üçün şirkətimizdə yer yoxdur.

Əməli Mükəmməllik və Etik Qərar Qəbul Etmə

CoBE qərarvermə, risklərin idarə edilməsi və maraqlı tərəflərlə münasibətlərimizdə bizim üçün kompas rolunu oynayır. Uzunmüddətli uğurumuz hər birimizin sağlam mühakimə yürütməsindən, etdiyimiz işin məqsədini, səbəbini və üsulunu düşünməsindən asılıdır. Qərarlar qəbul edərkən biz daim şəffaf olmalı, müvafiq məlumatları toplamalı və faktları və riskləri nəzərdən keçirdikdən sonra düşünülmüş və etik qərarlara gəlmək üçün fərziyyələrimizi yoxlamalıyıq.

Qarşılaşdığımız bir çox qərarlar birmənalı olmaya bilər. Müxtəlif strateji məqsədlərin toqquşduğu və diqqətli düşünmə tələb edən dilemmalarla üzləşə bilərik. Bəzi qərarlar bəziləri üçün mübahisəli də ola bilər. CoBE və digər idarəetmə prinsiplərimiz bu hallarda bizə istiqamət göstərir və dəstək olur. Buna görə də, rəhbərlərinizlə CoBE və onun prinsiplərinin tətbiqi barədə açıq danışmağa sizi təşviq edirəm. Çətin mövzularda açıq söhbətlər bəzən narahat ola bilər, amma düzgün və məlumatlı qərarlar qəbul etmək üçün bu, vacibdir.
Bəzən verdiyimiz qərar arzuladığımız nəticəni verməyə bilər, lakin bu, biznesin bir hissəsidir. Əgər qərar düşünülmüş və əsaslandırılmışdırsa, biz onun arxasında dura bilərik. Qərarlardan qaça bilmərik, amma qərarların açıq, əsaslı və gələcəkdə müdafiə oluna biləcək şəkildə qəbul edilməsini təmin edə bilərik.

**Liderlik və Məsuliyyət**

Liderlər dürüstlüyün bütün qərarlara və hərəkətlərə rəhbərlik etdiyi bir mədəniyyətin formalaşmasında xüsusi rol oynayır. Onlar strategiyamızın necə tətbiq olunduğunu anlamağa və bütün əməkdaşların Ericssonun məqsədlərinə nail olmaq üçün etik və məsuliyyətli davranmalarını təmin etməyə borcludurlar.

Liderlər əməkdaşlarla fəal ünsiyyətdə olmalı, müxtəlif baxışlara açıq olmalı, maraq göstərməli və biznes məqsədlərinin necə həyata keçirildiyini başa düşmək üçün məsuliyyət daşımalıdırlar. Hər qərarda dürüstlüyün əsas rol oynadığı iş mühitini təşviq etməlidirlər. Biz "nə bahasına olursa olsun" qazanmaq istəmirik – biz düzgün yolla qazanırıq və qısayollar seçmirik!

**Dürüstlük və Narahatlıqların Bildirilməsi**

Etika və dürüstlüyə sadiqliyimiz biznesimizin təməlidir və həm daxili, həm də xarici tərəfdaşların etimadını qorumaq üçün vacibdir. Hər birimiz CoBE-nin mümkün pozuntuları barədə vicdanla məlumat verməyə borcluyuq və bunu Uyğunluq Xətti (Compliance Line) vasitəsilə edə bilərik. Əgər qanunsuz və ya düzgün olmayan davranışdan şübhələnirsinizsə, "görməməzliyə vurmaq" və ya "başqasının problemi kimi" yanaşmaq yolverilməzdir. Bir "pis niyyətli" şəxs belə hamımıza ciddi zərər verə bilər.

Qaldırılan narahatlıqlar təcrübəli komanda tərəfindən qiymətləndirilir və zəruri hallarda araşdırılır. Biz qanun pozuntusuna dözmürük və dözə də bilmərik. Qüsurlu davranış göstərənlərə qarşı ciddi intizam tədbirləri görülür, o cümlədən işdən azad etmə. Sadiqliyimiz güclüdür: 2024-cü ildə araşdırmalar nəticəsində 82 nəfər əməkdaşın əmək müqaviləsinə xitam verilmişdir.

Biz Ericsson-da hər kəsdən yüksək gözləntilərimiz var və dürüstlük və peşəkarlıq bizim fəaliyyətimizin təməl dəyərləridir.

Lakin "danışmaq" yalnız Uyğunluq Xəttinə müraciət etmək demək deyil. Riskləri müəyyən etdikdə, qərarverməyə kömək edəcək məlumatlara malik olduqda və ya potensial pozuntu gördükdə, bir-birimizlə açıq şəkildə danışmaq və problemləri birlikdə həll etmək vacibdir. Əməkdaşlıq və birgə həll axtarışı sağlam təşkilatın əsasını təşkil edir. Bu məsuliyyəti ciddi qəbul etdiyiniz üçün hər birinizə təşəkkür edirəm.

**Gələcəyimiz**

Sənaye lideri olmaq təkcə gördüyümüz işdən deyil, onu necə gördüyümüzdən asılıdır. Uzunmüddətli perspektivdə uğurlu olmaq üçün biz dürüstlük və məsuliyyətlə liderlik etməyə davam etməliyik. Dəfələrlə dediyim kimi, dəyişiklik daimidir. Bizim etik təməlimiz bizə süni intellekt, bulud texnologiyaları və yeni nəsil şəbəkələr kimi sahələrdə məsuliyyətlə innovasiya aparmaq, etimad qazanmaq və uzunmüddətli dəyər yaratmaq imkanı verir.

Dəyişiklikləri qəbul edərək və yeniliyə rəhbərlik edərək biz hər zaman dəyərlərimizə, məsuliyyətlərimizə və liderlik prinsiplərimizə sadiq qalacağıq; CoBE hər zaman bizim fəaliyyətlərimizə istiqamət göstərəcək. Gəlin birlikdə çalışaq, birbaşa ünsiyyət quraq, tənqidi düşünək və qərarlı addımlar ataq ki, hər bir hərəkətimiz dəyərlərimizə uyğun olsun və Ericssonun maraqlarına xidmət etsin.

Hər birimiz dürüstlük dəyərini qorumağa, CoBE prinsiplərinə sadiq qalmağa və etik qərarlar qəbul etməyə borcluyuq. Bu öhdəliyimizin göstəricisi olaraq mən, İcra Komandamızın hər bir üzvü və Direktorlar Şurası hər il CoBE-ni imzalayırıq və hər birinizdən də eyni şeyi gözləyirik.

Hər bir gündə atdığımız kiçik və böyük addımlar birlikdə dayanıqlı, gələcəyə yönəlmiş və aparıcı bir təşkilat mədəniyyəti formalaşdırır. Ericssonun məqsədlərinə nail olmaq üçün sadiqliyinizə və dəstəyinizə görə hamınıza təşəkkür edirəm.

Gəlin birlikdə irəliləməyə davam edək!

**Börje**
Prezident və Baş İcraçı Direktor
12 noyabr 2025-ci il



# Kompasımızı istifadə edin




Bizim Kompas, Ericssonun etik prinsip və gözləntiləri üçün sizin bələdçinizdir. Bu, dürüstlüklə idarə etməyimizə imkan verən peşəkarlıq, hörmət və əzmkarlıq dəyərlərimizə uyğun gəlir. Tez-tez buna istinad etməklə əmin ola bilərsiniz ki, sizin hərəkətləriniz və qərarınız Ericssonun etik işgüzar davranış tələblərinə uyğundur.

# Ericsson adından fəaliyyət göstərən zaman həmişə 3 P-ni xatırlayın

## P1 Fəaliyyətimin məqsədi nədir?

- Bu fəaliyyətin qanuni biznes səbəbi var?
- Bu fəaliyyət Ericsson şirkətinin maraqlarına uyğundur?
- Bu fəaliyyətin hansı riskləri ola bilər? Onları necə azalda bilərəm?

## P2 Fəaliyyətimi hansı prinsiplər istiqamətləndirməlidir?

- Fəaliyyət qanunidirmi, Kompas və idarəedici qaydalarımıza uyğundurmu?
- Fəaliyyət etikdirmi və dəyərlərimizə uyğundurmu?

## P3 Fəaliyyətim necə qavranılacaq?

- Xəbərlərdə göstərilsəydi fəaliyyətim necə görünərdi?
- Fəaliyyətim Ericsson şirkətinin nüfuzuna mənfi təsir göstərəcək?

# Mündəricat


## Codumuz, Compasımız

1.1 Ericsson-un etika gözləntilərindən xəbərdar olmaq 07
1.2 Ericsson şirkətində işləyərkən məsuliyyətlərinizi bilin 08
1.3 Etika və uyğunluqla bağlı narahatlıqları bildirmək 09

## İnsanlarımız və iş yerimiz

2.1 Hər kəsə hörmətlə, inklüziv və ləyaqətli şəkildə davranmaq 11
2.2 Ədalətli və əlverişli iş şəraiti təmin etmək və həmkarlar ittifaqı hüquqlarına hörmət etmək 12
2.3 Sağlamlığı, təhlükəsizliyi və rifahı təmin etmək 13
2.4 Məcburi əməyi, insan alverini və uşaq əməyini qadağan etmək və qarşısını almaq 14

## Biznesimiz, müştərilərimiz və təchizatçılarımız

3.1 Biznesi dürüstlüklə idarə etmək və korrupsiyaya sıfır tolerans göstərmək 16
3.2 Ericsson-un maraqlarına uyğun hərəkət etmək 17
3.3 Texnologiya və təkliflərimizin dəyərlərinə görə rəqabət aparmaq 18
3.4 Yalnız dürüstlük öhdəliyimizi paylaşan üçüncü tərəflərlə əlaqə saxlamaq 1ö
3.5 Beynəlxalq ticarət və çirkli pulların yuyulması ilə bağlı qanunlara hörmət etmək 20

## Aktivlərimiz və əqli mülkiyyətimiz

4.1 Məxfi məlumatları və əqli mülkiyyəti qorumaq 22
4.2 Şirkət məlumatlarından və aktivlərindən məsuliyyətlə istifadə etmək 23
4.3 Şəxsi məlumatları qorumaq 24
4.4 Düzgün maliyyə nəzarəti təmin etmək və saxtakarlığın qarşısını almaq 25
4.5 Məsuliyyətli ünsiyyət qurmaq 26

## Sosial və ekoloji fəaliyyətlərimiz

5.1 Məxfilik hüququnu və ifadə azadlığını təşviq etmək 28
5.2 Ətraf mühitin davamlılığı ilə bağlı öhdəliyimizi dəstəkləmək 29
5.3 Yerli icmaları gücləndirmək və dəstəkləmək 30

# 01

# Codumuz, Compasımız

## Biznesimizi hər zaman etik və məsuliyyətli şəkildə idarə etməyə sadiqik


| | | |
|---|---|---|
| 1.1 | Ericsson-un etika gözləntilərindən xəbərdar olmaq | 07 |
| 1.2 | Ericsson şirkətində işləyərkən məsuliyyətlərinizi bilin | 08 |
| 1.3 | Etika və uyğunluqla bağlı narahatlıqları bildirmək | 09 |

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Ericsson-un etika gözləntilərindən xəbərdar olmaq

## Compass-ımız biznesi necə idarə etməyimizlə bağlı şirkətimizin gözləntilərini müəyyənləşdirir.

Code of Business Ethics bizim Compass-ımız və Ericsson şirkətinin korporativ idarəçiliyinin əsas sütunlarından biridir. Compass biznesimizi peşəkarlıqla, hörmətlə və dürüst şəkildə idarə etməyimiz üçün bizə yol göstərir.

Compass yalnız Ericsson şirkətinin adi işçiləri üçün deyil, həm də Ericsson şirkətinin gündəlik işlərinə nəzarət etdiyi bütün şəxslər və Ericsson şirkəti tərəfindən birbaşa və ya dolayı yolla idarə olunan bütün müəssisələrin Direktorlar Heyətinin üzvləri üçün də tətbiq olunur. Ericsson ilə əməkdaşlıq edən üçüncü tərəflərdən Code of Conduct for Business Partners kodeksimizə əməl etməklə Compass-ımızda qeyd olunan dəyərlərə sadiq qalmalarını tələb edirik.

Biz bütün müvafiq qanun və qaydalara əməl olunmasına görə məsuliyyət daşıyırıq. Bundan əlavə, Compass-ımıza, coğrafi mövqeyimiz, iş rolumuz və ya icra etdiyimiz fəaliyyətə əsasən bizə tətbiq olunan bütün Ericsson rəhbər sənədlərinə riayət etməyimiz tələb olunur. Bu sənəddə Compass-a uyğunluqla bağlı qeyd olunan istənilən tələbə hər zaman müvafiq rəhbər sənədlərə əməl etmək tələbi də daxildir. Nəhayət, Compass-ımızdakı tələblərdən hər hansı biri qanuni tələblərdən fərqlidirsə, hər zaman daha tələbkar standartı tətbiq etməlisiniz.

Biz texnologiyadan, o cümlədən süni intellektdən məsuliyyətli, ədalətli və etik şəkildə istifadə edirik. Buraya təhlükəsizliyi, inklüzivliyi, şəffaflığı, məlumatların məxfiliyini, hesabatlılığı və ümumi sosial və ekoloji rifahı təmin etmək üçün insan nəzarətinə diqqət yetirmək daxildir.

Compass-ımızın pozuntuları şirkətdəki vəzifənizdən asılı olmayaraq əmək müqaviləsinə xitam verilməsi də daxil olmaqla intizam tədbirlərinə gətirib çıxara bilər. Eyni zamanda, insanların bəzən yaxşı niyyətlərinə rəğmən həqiqətən səhvlər etdiyini başa düşürük. Bu baş verərsə və ya sualınız, yaxud narahatlığınız olarsa, məsuliyyətli, şəffaf olun və fikrinizi bildirin.

Rəhbər sənədlərimizin sizə necə tətbiq olunduğundan əmin deyilsinizsə, bölmə menecerinizdən məsləhət alın. Həmçinin People Function (İnsan Resursları) və ya Group Function Legal Affairs & Compliance kimi müvafiq şöbələrə də müraciət edə bilərsiniz.  Məsələn, Compliance Office (Uyğunluq Ofisi), Compliance Consultation Desk və Ethics & Compliance Portalı etika və uyğunluq məsələləri ilə bağlı tövsiyələr və müvafiq təsdiqləmələr təklif edir.



**Learn more**

Useful links

- Our company story
- Ericsson on the Move
- Atlas - Assistant to support questions on EGMS

CoBE Relevant Documents:

- See section 1.1. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Ericsson şirkətində işləyərkən məsuliyyətlərinizi bilin

## Biz hər zaman dürüst davranırıq.

Rolumuz nə olursa olsun, Ericsson şirkətinin nümayəndələri qismində bizneslə məşğul olarkən məqsədimizə və dəyərlərimizə uyğun olaraq məsuliyyətli, dürüst və vicdanlı davranmalıyıq. Bu o deməkdir ki, biznes fürsətini itirmək ehtimalı mövcud olsa belə, hər zaman dürüstlüklə hərəkət etməliyik. Bundan əlavə, dürüst davranmaq öhdəliyi hər birimizdən qanunun, Compass-ımızın və ya rəhbər sənədlərimizin pozulduğunu bildiyimiz və ya bundan şübhələndiyimiz, yaxud da Ericsson şirkətini və ya onun nüfuzunu riskə məruz qoya biləcək hər hansı digər məlumata sahib olduğumuz təqdirdə uyğunluq məsələsi qaldırmağımızı tələb edir.

Tələb olunduqda, Ericsson və ya qanuni üçüncü tərəf tərəfindən aparılan hər hansı araşdırma, yoxlama və ya qiymətləndirmədə tam əməkdaşlıq etməlisiniz; buraya harada yerləşməsindən asılı olmayaraq, işlə bağlı məlumatlar, qeydlər və ya kommunikasiyalara giriş təmin etmək və bu məlumatları heç vaxt məhv etməmək və ya dəyişdirməmək öhdəliyi də daxildir.

Menecer, İcra Komandasının və ya Direktorlar Şurasının üzvüsünüzsə, xüsusilə vacib vəzifəniz var: dürüstlük və uyğunluq mədəniyyətini idarə etməyə görə məsuliyyət daşıyırsınız!

**Liderlər və bölmə menecerləri:**

- Komanda üzvlərini suallar verməyə və çətin etik vəziyyətlər haqqında onlarla danışmağa həvəsləndirməli və dəstəkləməlidir
- Komanda üzvlərinin düzgün təlim keçməsini və Compass-ımıza və rəhbər sənədlərimizə necə əməl edəcəklərini bilmələrini təmin etməlidir
- Komandalara qeyri-etik davranışı və ya rəhbər sənədlərimizin pozuntularını dolayı şəkildə təşviq edəcək təzyiqlər göstərməməlidir
- Potensial yanlış davranışlar barədə məlumat verməli və komanda üzvləri narahatlıqlarını bildirdikdə onlara dəstək olmalıdır



**Learn more**

Useful links

- Compliance @ Ericsson

CoBE Relevant Documents:

- See section 1.2. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Etika və uyğunluqla bağlı narahatlıqları bildirmək

## Əgər nə isə düzgün görünmürsə, hamımız bunu bildirməliyik.

**Əgər nə isə düzgün görünmürsə:**

- Bölmə menecerinizlə və ya menecerinizin rəhbəri ilə danışın
- People Function və ya Group Function Legal Affairs & Compliance şöbəsindən məsul bir şəxs ilə danışın və ya
- Ericsson Compliance Line ilə əlaqə saxlayın. (Ericsson Compliance Line-dan istifadə edərkən yerli qanunla icazə verilən hallarda anonim qalmağı seçə bilərsiniz.)

Ericsson Compliance Line müstəqil üçüncü tərəf tərəfindən təşkil olunaraq bütün şikayətləri təhlükəsiz və məxfi şəkildə idarə edir. Xidmət bütün daxili və xarici tərəflər üçün 60-dan çox dildə 24/7 əlçatandır.

Compass-ımızın pozuntusunu gördükdə və ya bundan şübhələndikdə fikrimizi açıq şəkildə bildirməliyik. Bunu etməmək intizam tədbirinə səbəb ola bilər. Narahatlıqlarınız əlavə suallar verə biləcək İddiaların İdarə Edilməsi Ofisi (Allegation Management Office) tərəfindən qiymətləndiriləcək. Bu narahatlıqlar Korporativ və Hökumət Təhqiqatları (Corporate & Government Investigations) şöbəsi tərəfindən araşdırıla və ya digər müvafiq bölmələr tərəfindən idarə oluna bilər.

Yaxşı niyyətlə həqiqi uyğunluq narahatlığını bildirdiyiniz zaman cəzalanmadan qorunacaqsınız: heç bir formada qisasa yol vermirik.

Bölmə meneceri və ya digər etibarlı şəxssinizsə və kimsə sizinlə bağlı uyğunluq narahatlığını bildirərsə, bu barədə Group Function Legal Affairs & Compliance və ya Ericsson Compliance Line-a məlumat verməlisiniz. Məlumat verməzdən əvvəl narahatlığın mahiyyətini daha yaxşı başa düşmək üçün şikayət edən şəxslə danışmaq lazım gələ bilsə də, mürəkkəb hüquqi məsələlər ola biləcəyi üçün öz araşdırmanızı aparmağa çalışmamağınız vacibdir.

Menecerlər performans məsələləri və proseslərə riayət edilməməsi kimi bəzi problemləri həll etmək üçün səlahiyyətli olduqlarını bilməlidir, lakin biznes etikası və davranış pozuntuları ilə bağlı uyğunluq narahatlıqlarını bildirməlidirlər.

Narahatlıqlarınızı hər zaman həmkarlar ittifaqına və ya iş şurası təmsilçilərinizə bildirmək hüququnuz var, lakin Compass-ımızın potensial pozuntuları haqqında müvafiq Ericsson kanalları vasitəsilə də məlumat verməlisiniz.

Məlumat verdikdən sonra hüquqi prosesdə iştirak etmək hüquqlarınızdan imtina etməyiniz tələb olunmur. Uyğunluq narahatlığını Ericsson kanalları vasitəsilə bildirərkən məlumatın açıqlanmaması müqaviləsi imzalamağınız tələb olunmayacaq.



Uyğunluq haqqında şikayət bildirmək üçün **Ericsson Compliance Line** ilə əlaqə saxlayın

### Learn more

Useful links

- Reporting Compliance Concerns

CoBE Relevant Documents:

- See section 1.3. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# İnsanlarımız və iş yerimiz

İnklüziv və dəstəkli iş yerində tam potensialınıza çata və inkişaf edə bilərsiniz. Biz hər bir insanın ləyaqətinə hörmətlə yanaşırıq və İnsan Hüquqları haqqında Beynəlxalq Qanunda və Beynəlxalq Əmək Təşkilatının İşdə Əsas Prinsiplər və Hüquqlar haqqında Bəyannaməsində qeyd olunan hüquqlar da daxil olmaqla, beynəlxalq səviyyədə tanınmış bütün insan və əmək hüquqlarına uyğun olaraq işləyirik.


| | | |
|---|---|---|
| 2.1 | Hər kəsə hörmətlə, inklüziv və ləyaqətli şəkildə davranmaq | 11 |
| 2.2 | Ədalətli və əlverişli iş şəraiti təmin etmək və həmkarlar ittifaqı hüquqlarına hörmət etmək | 12 |
| 2.3 | Sağlamlığı, təhlükəsizliyi və rifahı təmin etmək | 13 |
| 2.4 | Məcburi əməyi, insan alverini və uşaq əməyini qadağan etmək və qarşısını almaq | 14 |


02

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Hər kəsə hörmətlə, inklüziv və ləyaqətli şəkildə davranmaq

## Hörmətə əsaslanan dəstəkləyici iş mühitini təşviq edirik.

Həmkarlarımızla hörmətlə, ləyaqətli və inklüziv davranmaq hər kəsin ən yaxşı xüsusiyyətlərini ortaya çıxarır və bu, düzgün yanaşmadır. Ericsson şirkətində işçilərimizin psixoloji təhlükəsizliyinin təmin edilməsi hər şeydən önəmlidir və heç kimə qarşı təhqir, təhdid, zorbalıq və ya zorakılığa yer yoxdur.

Ericsson təcavüz, ayrı-seçkilik, qisas, təhdid və ya zorakılıq hərəkətlərinin bütün növlərini, o cümlədən aşağıdakıları qadağan edir:

- İş sahəsində (istər ofisdə, istər ofisdən kənarda, istərsə də onlayn) işçilərə və ya hər hansı üçüncü tərəfə qarşı fiziki, şifahi və ya yazılı təcavüz/təhqir
- Zorbalıq, hədə-qorxu, düşmənçilik, təhqir, ayrı-seçkilik və ya psixoloji pis rəftar
- Təhqiramiz və ya aşağılayıcı ifadələr, zarafatlar, şəkillər və ya ləqəb qoymaq
- Arzuolunmaz diqqət və ya fiziki təmas, yaxud məxfiliyə və ya şəxsi məkana digər müdaxilələr
- Normal iş fəaliyyətinə mane olmaq və ya qarşısını almaq məqsədli davranış

Bilirik ki, müxtəliflik bizi bir şirkət kimi daha da güclü edir. Müxtəlif və inklüziv iş yerinə sahib olmaq ən yaxşı qlobal istedadları cəlb etməyimizə, innovasiyaları dəstəkləməyimizə və müştərilərimizə daha çox dəyər təklif etməyimizə kömək edir. Hər kəsin özünü dəyərli və cəlb olunmuş hiss etməsini istəyirik.

Hamımız Ericsson şirkətinin şəxsi mənşə, qavrama perspektivləri və ya əlillik kimi amillərdən asılı olmayaraq hər bir fərdin inkişaf edə və özünü güclü hiss biləcəyi bir məkan olmasına öz töhfəmizi verməliyik.

**Sizdən nə gözlənilir:**

- İnsanları nailiyyətlərinə əsasən işə götürmək, mükafatlandırmaq və irəli çəkmək
- Nepotizmin və ya diskriminasiyanın qarşısını almaq
- İşçinin özünü xaric edilmiş və ya arzuolunmaz hiss etməsinə səbəb ola biləcək hər hansı davranışdan çəkinmək. Bu, iş saatlarında və işdən kənar vaxtlarda, Ericsson binaları daxilində və ya xaricində, eləcə də kənar tədbirlər və ya işgüzar səyahətlər zamanı tətbiq olunur.



**Learn more**

CoBE Relevant Documents:

- See section 2.1. of CoBE Relevant Documents
- Check with local People function for local steering documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Ədalətli və əlverişli iş şəraiti təmin etmək və həmkarlar ittifaqı hüquqlarına hörmət etmək

Biz hər kəsin ədalətli, təhlükəsiz və əlverişli iş şəraiti hüquqlarını, həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq və kollektiv danışıqlar aparmaq hüququnu dəstəkləyirik.

**Bura daxildir:**

- İşə qəbulunuzun əsas qayda və şərtlərini əks etdirən, başa düşdüyünüz dildə yazılmış sənəd almaq
- Ədalətli və ağlabatan maaş və ən azı yaşayış minimumunu əhatə edən qaydalar və şərtlər
- Beynəlxalq standartlara uyğun iş saatları da daxil olmaqla sağlam iş-həyat balansını dəstəkləmək üçün kifayət qədər istirahət və asudə vaxt
- Müstəqil həmkarlar ittifaqları yaratmaq və ya onlara qoşulmaq, habelə kollektiv danışıqlar aparmaq.

Bütün həmkarlarınızın təşkilatlanmaq azadlığına və kollektiv danışıqlar aparmaq hüququna hörmət etməli və bu hüquqları qanunsuz şəkildə məhdudlaşdırmamalısınız. Həmkarlar ittifaqına və ya bənzər təşkilata üzv olmaq və ya olmamaq seçiminə görə heç kimə fərqli davranmağınıza icazə verilmir. Eyni zamanda, həmkarlar ittifaqı nümayəndələri işçilərlə səmərəli ünsiyyət qura bilməlidir.



Learn more

Useful links

- Business and Human Rights Statement
- Respect for human rights

CoBE Relevant Documents:

- See section 2.2. of CoBE Relevant Documents
- Check with local People function for local steering documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Sağlamlığı, təhlükəsizliyi və rifahı təmin etmək

## Hamı üçün təhlükəsiz və sağlam iş mühiti təmin etmək üçün birgə çalışırıq.

İş yerində təhlükəsizliyinizi və rifahınızı təmin etmək üçün əlimizdən gələni edəcəyik. Sizdən də özünüzün və sizinlə birlikdə və ya yanaşı işləyən hər kəsin qayğısına qalmaq üçün əlinizdən gələni edəcəyinizi gözləyirik. Hədəfimiz işlə əlaqəli bağlı ölüm, xəsarət və xəstəlik hallarının sayını sıfıra endirməkdir. Target Zero-ya (Sıfır Hədəfinə) çatmaq üçün hamımız birlikdə çalışmalıyıq və Ericsson Care buna nail olmaq üçün kompleks yanaşmamızdır.

**Sizdən nə gözlənilir:**

- İşçilərimizə və ya təchizatçılarımıza heç bir zərər yetirilməməsini təmin etmək üçün həmişə məsuliyyətli və təhlükəsiz işləyin, düzgün alətlərdən və fərdi qoruyucu vasitələrdən istifadə etmək, təyin edilmiş təhlükəsizlik təlimlərini tamamlamaq və sağlamlıq və təhlükəsizlik qaydalarına (Həyat Xilasetmə Qaydaları da daxil olmaqla) əməl etmək
- Hər kəs üçün sağlamlıq, təhlükəsizlik və rifahı təşviq edən mühit yaratmağa fəal şəkildə yardım etmək
- Sağlamlıq və təhlükəsizlik risklərini müəyyən etmək, bildirmək və minimuma endirmək
- Hər kəsin təhlükəsizlik və rifahına mane olan amillər barədə məlumat verə biləcəyi psixoloji cəhətdən təhlükəsiz danışma mədəniyyətini təşviq etmək
- Sağlam iş yükünü və rol aydınlığını təşviq etməklə və ziddiyyətli tələblərin qarşısını almaqla psixososial risklərin və işin keyfiyyətsiz təşkilinin qarşısını almaq
- Alkoqol və ya qanunsuz maddələrin təsiri altında işləməmək
- Hər hansı bir şəxsin sağlamlığına və ya təhlükəsizliyinə təhlükə yarada bilərsə, dərmanların təsiri altında işləməmək
- Təkrarlanmaların qarşısını almaq üçün hər hansı sağlamlıq və təhlükəsizlik insidenti barədə Global Incident Reporting Tool vasitəsilə məlumat vermək
- Özünüzün, həmkarınızın və ya təchizatçınızın sağlamlığı, təhlükəsizliyi, yaxud rifahı ilə bağlı narahatlığınız varsa, bunu açıq şəkildə bildirmək və işi dayandırmaq. Vəziyyət düzəlməyibsə, bölmə meneceriniz və yerli sağlamlıq və təhlükəsizlik nümayəndənizlə əlaqə saxlamalı və problem barədə Global Incident Reporting Tool vasitəsilə məlumat verməlisiniz.



**Learn more**

Useful links

- Health, safety and well-being

CoBE Relevant Documents:

- See section 2.3. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Məcburi əməyi, insan alverini və uşaq əməyini qadağan etmək və qarşısını almaq

## Biz sərbəst şəkildə özümüz seçdiyimiz üçün burada işləyirik. Biz uşaq hüquqlarını dəstəkləyirik.

Ericsson şirkətində insan alveri və məcburi, vadar olunmuş, icbari əmək və ya borc əsarəti də daxil olmaqla, köləlik istismarının hər hansı forması qəti qadağandır. Ericsson üçün icra olunan bütün işlər könüllü, razılıq əsasında olmalı və məcburiyyət və ya təhdidlərdən azad olmalıdır. Hamımız mövcud qanunvericiliyə uyğun olaraq məqbul xəbərdarlıq etdikdən sonra işimizdən və ya təyinatımızdan istefa vermək hüququna malikik. Siz heç vaxt Ericsson və ya işə götürmə agentliyində pul və ya şəxsiyyət vəsiqəsi qoyub getmək tələbini qəbul etməməlisiniz.

Yerli qanunlardan asılı olmayaraq, şirkət tərəfindən maliyyələşdirilən səfərlər zamanı və ya şirkət işi ilə əlaqədar olaraq, özünüz, yaxud başqaları üçün seksual xidmətlər və ya seksual xarakterli digər xidmətlər almağınız, yaxud da başqalarının bunları sizin üçün almasına icazə verməyiniz qadağandır.

Biz uşaqların hüquqlarını dəstəkləyir və müdafiə edirik və uşaqlarla bütün qarşılıqlı əlaqələrimizdə uşaqların qorunması tədbirlərinin həyata keçirilməsini təmin edirik. Uşaq əməyini qəti şəkildə qadağan edir və əməliyyatlarımız boyunca uşaqlara zərər yetirilməməsi üçün ehtiyat prinsiplərini tətbiq edirik. İşə götürmə zamanı hər bir şəxsin uyğun əmək yaşında olduğuna əmin olmaq üçün yaşı təsdiqlənməli və sənədləşdirilməlidir.

### Məcburi əməyin mövcudluğu

Məcburi əmək qlobal miqyasda geniş yayılmışdır və bir çox sənaye sahələrində mövcuddur. Miqrant işçiləri işə götürərkən, əmək brokerlərindən və ya müvəqqəti işçi qüvvəsindən istifadə edərkən bu riski xüsusilə nəzərə almalısınız. Potensial işçilərdən işə qəbul haqqını və ya xidmətlə bağlı digər xərcləri ödəmələrini istəməməlisiniz. Bu, işə götürmə agentliyinin istifadə edilib-edilməməsindən asılı olmayaraq tətbiq olunur. Ericsson şirkəti "işəgötürən ödəyir" prinsipinə sadiqdir və işçinin ödədiyi hər hansı işə qəbul haqqını kompensasiya edəcək.



**Learn more**

Useful links

- Business and Human Rights Statement
- Respect for human rights

CoBE Relevant Documents:

- See section 2.4. of CoBE Relevant Documents

# Biznesimiz, müştərilərimiz və təchizatçılarımız

## 03



Biznesimizi dürüstlük və şəffaflıqla idarə etməyə və məsuliyyətli korporativ vətəndaş olmağa qərarlıyıq.


| | | |
|---|---|---|
| 3.1 | Biznesi dürüstlüklə idarə etmək və korrupsiyaya sıfır tolerans göstərmək | 16 |
| 3.2 | Ericsson-un maraqlarına uyğun hərəkət etmək | 17 |
| 3.3 | Texnologiya və təkliflərimizin dəyərlərinə görə rəqabət aparmaq | 18 |
| 3.4 | Yalnız dürüstlük öhdəliyimizi paylaşan üçüncü tərəflərlə əlaqə saxlamaq | 19 |
| 3.5 | Beynəlxalq ticarət və çirkli pulların yuyulması ilə bağlı qanunlara hörmət etmək | 20 |

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Biznesi dürüstlüklə idarə etmək və korrupsiyaya sıfır tolerans göstərmək

## Biznesdə uğur qazanmaq üçün qeyri-münasib təsirdən istifadə etmirik.

Nüfuz və etibar qazanmaq çətin, itirmək isə asandır. Ericsson şirkəti olaraq heç vaxt heç kimin hərəkətlərinə qeyri-münasib təsir göstərməyə çalışmırıq. Qanunsuz üstünlük əldə etmək üçün dövlət məmuruna, həmkarına, müştəriyə və ya digər üçüncü şəxslərə hər hansı mənfəət təklif etmək və ya vermək rüşvətxorluq adlanır və bu qəti qadağandır. Siz də heç kimdən bu cür mənfəət tələb etməməli və ya qəbul etməməlisiniz.

Rüşvət və ya korrupsiyanın heç bir formasına qarşı tolerantlığımız yoxdur. Bundan əlavə, Ericsson yerli qanunvericilik çərçivəsində icazə verilən və ictimai hesabatlılıq qaydaları ilə dəstəklənən könüllü işçi ianələri istisna olmaqla, siyasi partiyalara və ayrı-ayrı siyasətçilərə birbaşa və ya dolayı yolla töhfələr etməyəcək.

Hədiyyə, əyləncə, qonaqpərvərlik, sponsorluq, ianə və iş imkanlarının hər zaman rəhbər sənədlərimizə və qanuna uyğun olmasını təmin etməlisiniz. Qanuna və tələblərə uyğun fəaliyyət göstərməyə kömək etmək üçün hazırlanmış icbari tələblərin nümunələrini təqdim edirik:

- Heç vaxt fiziki şəxslərə nağd pul, nağd pul ekvivalenti, kreditlər, məzuniyyətlər və ya bənzər üstünlüklər kimi şəxsi mənfəət təmin etməyin
- Dövlət məmurlarına (və ya onların ailə üzvlərinə) hər hansı bir şey təmin edərkən diqqətli olun və öncədən təsdiqlərin və digər məhdudlaşdırıcı qaydaların tətbiq olunduğunu unutmayın
- Zəruri öncədən təsdiqləri əldə edin və sənədləşdirin
- Viza, icazə və ya lisenziyanın verilməsi kimi müntəzəm dövlət tədbirlərini (asanlaşdırıcı ödənişləri) sürətləndirmək və ya təmin etmək üçün heç bir uyğunsuz ödəniş etməyin
- Şəxsi vəsaitinizi və ya başqasının vəsaitini korporativ vəsaitlə edə bilmədiyiniz bir şey etmək, məsələn, fil sümüyü, narkotik maddələr və ya cinsi xidmətlər kimi qeyri-qanuni hədiyyələr almaq üçün istifadə etməyin
- Dövlət rəsmiləri ilə görüşdən əvvəl GFMC Government & Advocacy və ya Group Function Legal Affairs & Compliance şöbəsi ilə məsləhətləşin

?

**Dövlət rəsmiləri aşağıdakıların üzvləri, işçiləri və ya nümayəndələridir:**

- Hökumətlər – istər milli, istər regional, istərsə də yerli
- Dövlətə məxsus və ya dövlət tərəfindən nəzarət olunan şirkətlər
- Hərbi orqanlar, polis və məhkəmələr
- Siyasi partiyalar, dövlət vəzifəsinə namizədlər və siyasi nüfuz sahibi olan şəxslər
- İctimai beynəlxalq təşkilatlar (məsələn, Birləşmiş Millətlər Təşkilatı və ya Dünya Bankı)
- Kral ailələri



**Learn more**

Useful links

- Ethics & Compliance
- Gifts, entertainment and hospitality
- Contributions at Ericsson

CoBE Relevant Documents:

- See section 3.1. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Ericsson-un maraqlarına uyğun hərəkət etmək

## Maraq toqquşmasına səbəb ola biləcək hər hansı bir şeyi açıqlamaq üçün dərhal və şəffaf şəkildə hərəkət edirik.

Ericsson-la işimizdə peşəkar mühakiməmizin Ericsson xaricində sahib olduğumuz əlaqələr və rollarla bağlı digər rəqabətli maraqlar səbəbindən zəiflədiyi vəziyyətlər ortaya çıxa bilər. Bu, maraqların toqquşması adlanır və mahiyyət etibarı ilə yanlış bir şey deyil. Lakin hər birimiz Ericsson şirkətinin qanuni biznes maraqlarını birinci yerə qoymaq məsuliyyəti daşıyırıq. Hər dəfə potensial maraq toqquşmasından xəbərdar olduqda, bunu görməməzlikdən gəlmirik; düzgün şəkildə açıqlanmasını və idarə olunmasını təmin edirik.

**Sizdən nə gözlənilir:**

- Mümkün hallarda maraq toqquşmasından qaçmaq
- Maraq toqquşmasına səbəb ola biləcək və ya bu kimi qəbul edilə biləcək bütün vəziyyətlər, əməliyyatlar və münasibətlər barədə Ethics & Compliance Portalı vasitəsilə məlumat vermək. Compliance Office və People Function şöbələri vəziyyəti idarə etməkdə sizə kömək edəcək.

Potensial maraq toqquşması nümunələri:

– Ail□ üzvl□rinizin, dostlarınızın v□ ya keçmiş Ericsson □m□kdaşlarının işl□diyi v□ ya onlara m□xsus olan üçüncü ş□xsl□rl□ iş görm□k

– Ş□xsi münasib□tl□riniz olan h□r hansı ş□xsi iş□ götürm□k v□ ya ona n□zar□t etm□k

– Boş vaxtınızda Ericsson müşt□ril□ri v□ ya t□chizatçıları üçün işl□m□k

– Ericsson xaricind□ işl□m□k v□ ya iş performansınıza mane olan, Ericsson şirk□tinin m□lumat v□ ya aktivl□rind□n istifad□ etm□yinizi t□l□b ed□n, yaxud da □qli mülkiyy□t yaradacaq f□aliyy□tl□ m□şğul olmaq v□ ya r□hb□r v□zif□ icra etm□k

– Sahib olduğunuz v□ ya dig□r □h□miyy□tli maliyy□ marağınız olan şirk□tin müşt□ril□ri, t□chizatçıları v□ ya dig□r xarici maraqlı t□r□fl□ri il□ Ericsson şirk□ti adından □laq□l□r qurmaq



### Learn more

Useful links

- Conflict of Interest
- Compliance consultation desk
- E&C Portal

CoBE Relevant Documents:

- See section 3.2. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Texnologiya və təkliflərimizin dəyərlərinə görə rəqabət aparmaq

## Biz ədalətli rəqabət aparırıq.

Qeyri-qanuni və ya qeyri-etik biznes təcrübələri vasitəsilə rəqabət üstünlükləri əldə etməyə çalışmırıq. Başqalarına məxsus məxfi məlumatları, o cümlədən rəqabətli tender məlumatlarını uyğunsuz şəkildə əldə etməməli və ya istifadə etməməlisiniz. Müştərilər, rəqiblər və təchizatçılarla bütün münasibətlərinizdə hər zaman müvafiq rəqabət, antiinhisar və ədalətli ticarət qanunları və qaydaları çərçivəsində hərəkət etməlisiniz. Bu o deməkdir ki, qiymətlərin və ya digər alış və ya satış şərtlərinin tənzimlənməsi, rəqabət baxımından həssas məlumatların paylaşılması, yaxud da digər kartelə bənzər davranışlar kimi rəqabət narahatlıqlarına səbəb ola biləcək hər hansı razılaşma və ya müzakirələrdə iştirak etməməlisiniz. Buraya üçüncü tərəflərlə bir-birinin işçilərini işə götürməmək və ya əmək haqqını tənzimləmək barədə razılaşmalar da daxildir. Bazarda dominant mövqedən sui-istifadə də qadağandır.

Eksklüzivlik və ya rəqabət aparmamaq anlaşmalarını müzakirə etməzdən əvvəl, yaxud da digər rəqabət məsələlərinə dair narahatlığınız varsa, Group Function Legal Affairs & Compliance şöbəsi ilə əlaqə saxlamalısınız.



**Learn more**

Useful links

- Compliance consultation desk

CoBE Relevant Documents:

- See section 3.3. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Yalnız dürüstlük öhdəliyimizi paylaşan üçüncü tərəflərlə əlaqə saxlamaq

## Biz yalnız özümüzdən tələb etdiyimiz dürüstlük standartlarına əməl edən üçüncü tərəflərlə işləyirik.

Üçüncü tərəflərlə işləmək müdafiə etdiyimiz dəyərləri güzəştə getməmək üçün diqqətlə idarə etməli olduğumuz əhəmiyyətli risklər yarada bilər. Biznesimiz distribyutorlar, tərəfdaşlar, təchizatçılar, agentlər və ya məsləhətçilər kimi geniş üçüncü tərəf şəbəkəsinə əsaslanmağa davam edir. Onların hərəkətləri bizim kimi şirkətimizin də reputasiyasına təsir edir. Biz yalnız dürüstlük, insan hüquqları, sağlamlıq, təhlükəsizlik və ətraf mühit ilə bağlı yüksək standartlarımızı paylaşan təchizatçılar və digər tərəfdaşlarla əməkdaşlıq edirik. İşimizi dürüstlük, məsuliyyətlə və fəaliyyət göstərdiyimiz ölkələrin qanuni tələblərinə və hökumət qaydalarına uyğun olaraq idarə edirik və üçüncü tərəflərimizdən də bütün müvafiq qanun və qaydalara riayət etmələrini gözləyirik.

**Sizdən nə gözlənilir:**

- Əsl biznes sahibi kimi hərəkət etmək
- Yalnız təkmilləşdirilmiş Third Party Management (TPM) prosesimiz də daxil olmaqla, məsuliyyətli təchizatçı axtarma (soursinq) proseslərimizdən keçən ixtisaslı, təsdiqlənmiş üçüncü tərəflərlə işləmək. Ericsson işçilərinin özlərinin etməsinə icazəsi olmayan fəaliyyətləri yerinə yetirmək üçün heç vaxt üçüncü tərəflərdən istifadə etməmək.
- Üçüncü tərəflərlə dürüst və şəffaf qarşılıqlı əlaqələr qurmaq və onların Code of Conduct for Business Partners və ya ona bərabər tutulan sənədləri imzaladıqlarına və riayət etdiklərinə əmin olmaq
- Üçüncü tərəfin təsdiqlənməsi qərarının əsaslandığı bütün şərtləri aktiv şəkildə izləmək və qırmızı bayraqlar (təhlükə əlamətləri), əhəmiyyətli dəyişikliklər və xəbərdarlıq əlamətləri mövzusunda diqqətli olmaq
- Üçüncü tərəflərin dəqiq qeydlərini aparmaq, hər hansı uyğunsuzluqlara qarşı tədbir görmək və uyğunsuz ödənişlər vasitəsilə qərarlara təsir etmək cəhdlərini qadağan etmək
- Təkrar və/yaxud ciddi pozuntular zamanı müqavilənin ləğvi də daxil olmaqla, müvafiq hallarda düzəldici tədbir və vasitələr də daxil olmaqla effektiv risk azaldılması tədbirləri görmək
- Görkəmli dövlət vəzifəsini tutan (və ya tutmuş) hər kəslə, yaxud belə bir şəxsin ailə üzvü və ya yaxın adamı (PEP və ya Siyasi Nüfuzlu Şəxs) ilə işləyərkən xüsusilə diqqətli olmaq.



**Learn more**

Useful links

- Ericsson Responsible Sourcing
- TPM at Ericsson

CoBE Relevant Documents:

- See section 3.4. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Beynəlxalq ticarət və çirkli pulların yuyulması ilə bağlı qanunlara hörmət etmək

## Biz beynəlxalq ticarəti və çirkli pulların yuyulmasına qarşı tədbirləri tənzimləyən müvafiq qanun və qaydalara riayət edirik.

Avropa İttifaqı (Aİ), Amerika Birləşmiş Ştatları (ABŞ) və digər yurisdiksiyalar ixrac və gömrük nəzarəti, embarqolar və sanksiyalar da daxil olmaqla ticarət və sanksiya qanunları tətbiq edir. Bu qanunlar iş görə biləcəyimiz şəxsləri, ölkələri və qurumları, eləcə də təmin edə biləcəyimiz avadanlıq, proqram təminatı və xidmətləri məhdudlaşdırır. Onlar həmçinin bir şirkət olaraq Ericsson-un və işçilər olaraq bizim hansı ölkələrdə iş görə biləcəyimizi də məhdudlaşdırır.

**Sizdən nə gözlənilir:**

- Bu cür fəaliyyətlərlə məşğul olmazdan əvvəl Ericsson adından biznes əməliyyatlarınıza tətbiq oluna biləcək hər hansı sanksiyalar, idxal və ya ixrac nəzarətlərindən xəbərdar olmaq və tələb olunduqda lisenziya alındığına əmin olmaq
- Ericsson-un sanksiyaların yoxlanılması prosesinin yeni üçüncü tərəflərlə işə başlamazdan əvvəl və bundan sonra müntəzəm olaraq həyata keçirilməsini təmin etmək
- Şübhələriniz olduqda və sanksiya tətbiq olunmuş hər hansı ölkəyə səyahət etməzdən əvvəl iş telefonunuzdan və kompüterinizdən istifadə ilə bağlı təlimat almaq üçün GFLA Global Risk & Regulatory şöbəsində Trade Compliance bölməsi ilə əlaqə saxlayın

Biz azad və ədalətli ticarəti dəstəkləyirik və tətbiq olunan anti-boykot qaydalarına riayət etməyə qərarlıyıq. Hər hansı bir hərəkətin qanuniliyindən əmin deyilsinizsə və ya boykotda iştirak etməyiniz xahiş olunursa, hər zaman Group Function Legal Affairs & Compliance ilə məsləhətləşin.

Biz maliyyə uçotunun aparılması və hesabat tələblərinə, çirkli pulların yuyulmasına qarşı qanun və qaydalara, eləcə də terrorizmin maliyyələşdirilməsinə tətbiq olunan qanun və qaydalara ciddi diqqət yetiririk. Çirkli pulların yuyulması kiminsə cinayət yolu ilə əldə edilən pulların həqiqi mənşəyini gizlətməyə cəhd etdiyi qanunsuz fəaliyyətdir. Terrorizmin maliyyələşdirilməsi terror fəaliyyətlərini dəstəkləmək üçün vəsaitlərdən istifadə edilməsidir. Ericsson çirkli pulların yuyulması və ya terrorizmin maliyyələşdirilməsi ilə nəticələnən heç bir fəaliyyətə icazə vermir. Terror fəaliyyətinin məlum olduğu ərazilərdə işləyərkən naməlum bir tərəfə hər hansı resurs verməzdən əvvəl əlavə ehtiyat tədbirləri görün.

**Sizdən nə gözlənilir:**

- Cinayət fəaliyyəti ilə əlaqəli pul vəsaitlərinin cəlb olunduğundan şübhələnirsinizsə, heç vaxt biznes əməliyyatları ilə məşğul olmamaq
- Ericsson-un bütün məsuliyyətli təchizatçı axtarma (soursinq) və lazımi araşdırma tələblərinə əməl etmək və hər hansı qırmızı bayraqları bildirmək
- Məlum terror fəaliyyəti olan ərazilərə səyahət etməzdən əvvəl Ericsson Təhlükəsizlik Ofisinin tələb və məsləhətlərinə sahib olduğunuzdan əmin olmaq



**Learn more**

Useful links

- GFLA Trade Compliance
- Trade Compliance Portal

CoBE Relevant Documents:

- See section 3.5. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz


04

# Aktivlərimiz və əqli mülkiyyətimiz

Biz şirkətimizin aktivlərini və əqli mülkiyyətini, eləcə də həmkarlarımız, müştərilərimiz və üçüncü şəxslər tərəfindən bizə həvalə olunan məlumat və aktivləri qorumaq öhdəliyimizə sadiqik


| | | |
|---|---|---|
| 4.1 | Məxfi məlumatları və əqli mülkiyyəti qorumaq | 22 |
| 4.2 | Şirkət məlumatlarından və aktivlərindən məsuliyyətlə istifadə etmək | 23 |
| 4.3 | Şəxsi məlumatları qorumaq | 24 |
| 4.4 | Düzgün maliyyə nəzarəti təmin etmək və saxtakarlığın qarşısını almaq | 25 |
| 4.5 | Məsuliyyətli ünsiyyət qurmaq | 26 |

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Məxfi məlumatları və əqli mülkiyyəti qorumaq

## Biz məxfi məlumatları və əqli mülkiyyəti uyğun və icazəli məqsədlər üçün istifadə edirik.

Texniki və maliyyə məlumatlarımız, eləcə də əqli mülkiyyətimiz uğurumuz üçün çox vacibdir. Buraya tədqiqat və inkişaf məlumatları, patentlər, biznes və məhsul planları və strategiyaları, müştəri və təchizatçı məlumatları daxildir.

**Sizdən nə gözlənilir:**

- Məxfi məlumatları ictimai yerlərdə və ya internetdə müzakirə etməmək
- Yalnız qanuni biznes səbəbi olduqda məxfi məlumatlara daxil olmaq və ya onları paylaşmaq
- Məxfi və bizneslə bağlı məlumatları yalnız Ericsson tərəfindən icazə verilən cihazlarda və bulud xidmətlərində saxlamaq
- Ericsson ofislərində və obyektlərində ziyarətçilərinizi müşayiət etmək
- Şirkəti tərk edərkən Ericsson məlumatlarını götürməmək və ya istifadə etməmək; bütün şirkət məlumatları Ericsson-a məxsusdur.
- Digər şirkətlərə və ya üçüncü tərəflərə məxsus məxfi məlumatları uyğunsuz şəkildə əldə etməyə çalışmamaq

Zərərli proqram və ya fişinq kimi təhlükəsizlik təhdidlərinə qarşı diqqətli olmaq və Ericsson məlumatlarını və aktivlərini qorumaq üçün ən yaxşı təcrübələri tətbiq etmək hamımızın məsuliyyətidir.

**Sizdən nə gözlənilir:**

- Kompüterinizi və mobil cihazlarınızı ən son uyğun proqram versiyalarına yeniləmək və tələb olunduqda parollarınızı dəyişmək
- İstifadəçi İD-lərini (siqnum/imzaları) və ya parolları paylaşmamaq
- Ofisdən kənarda olarkən noutbukunuzu Ericsson şəbəkəsinə təhlükəsiz şəkildə qoşmaq üçün təmin edilmiş proqram təminatından istifadə etmək
- Yalnız təsdiqlənmiş və ya icazə verilmiş proqram təminatı, cihazlar və mesajlaşma tətbiqlərindən istifadə etmək
- Məxfi və ya şəxsi məlumatları ehtiva edən e-poçtları şifrələmək
- Bütün potensial təhlükəsizlik insidentləri barədə Security Incident Management System (SIMS) vasitəsilə məlumat vermək



**Learn more**

Useful links

- Report security and privacy incidents
- Compliance consultation desk
- Security at Ericsson

CoBE Relevant Documents:

- See section 4.1. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Şirkət məlumatlarından və aktivlərindən məsuliyyətlə istifadə etmək

## Biz heç bir formada insayder ticarəti ilə məşğul olmuruq və şirkət aktivlərindən yalnız qanuni məqsədlər üçün istifadə edirik.

Daxili məlumat Ericsson və ya digər şirkətlər haqqında ictimaiyyətə açıqlanmayan və açıqlandığı təqdirdə səhmlər, istiqrazlar və ya törəmə alətlər kimi maliyyə alətlərinin və qiymətli kağızların qiymətinə əhəmiyyətli təsir göstərəcək mühüm məlumatlardır. Bu məlumatlardan maliyyə alətləri və qiymətli kağızlar ticarəti üçün istifadə etmək və ya eyni məqsədlə başqalarına təqdim etmək qanunsuzdur. Buna insayder ticarəti deyilir və istisnasız olaraq bundan çəkinmək lazımdır.

**Sizdən nə gözlənilir:**

- Daxili məlumatlara malik olduqda maliyyə alətlərini və qiymətli kağızları almamaq və ya satmamaq, yaxud başqalarına bunu etməyi deməmək
- Layihə rəhbərinin təsdiqlədiyi ciddi ehtiyaclar istisna olmaqla, daxili məlumatları iş yoldaşları da daxil olmaqla heç kimlə paylaşmamaq
- Daxili məlumatlarınızın olub-olmadığından əmin deyilsinizsə, ticarət etməzdən əvvəl Group Function Legal Affairs & Compliance şöbəsi ilə yoxlamaq

Bütün Ericsson işçilərinə daxili məlumatınız olmasa belə, maliyyə hesabatlarının dərc edilməsinə 30 gün qalmış Ericsson maliyyə alətləri və qiymətli kağızları ilə ticarət etməmələri tövsiyə olunur.

Ericsson-un İT sistemləri və resurslarından yalnız bizneslə bağlı fəaliyyətlər üçün istifadə edin. Şirkət aktivlərini sui-istifadə, israfçılıq, oğurluq və itkidən qorumağa görə məsuliyyət daşıyırsınız. Buraya Ericsson-un İT resurslarından qeyri-qanuni, təcavüzkar, cinsi yönümlü, ləkələyici, irqçi, insan haqlarını pozan və ya uşaqların cinsi istismarı ilə əlaqəli hər hansı bir fəaliyyət üçün istifadə etməmək daxildir.



Learn more

Useful links

- Security at Ericsson

CoBE Relevant Documents:

- See section 4.2. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Şəxsi məlumatları qorumaq

## Şəxsi məlumatları məsuliyyətlə və məlumatların məxfiliyi qanunlarına uyğun olaraq emal edirik.

Şəxsi məlumatları qoruyuruq və onların qorunması üçün qlobal səyləri dəstəkləyirik. Şəxsi məlumatlar şəxsiyyəti müəyyən edilə bilən şəxslə əlaqəli ola biləcək məlumatlardır. Bunlara misal olaraq ad, ünvan, telefon nömrəsi, IMEI (Beynəlxalq Mobil Avadanlıq İdentifikatoru), IMSI (Beynəlxalq Mobil Abonent İdentifikatoru), foto, e-poçt və bank və ya kredit kartı məlumatlarını göstərmək olar.

Biz qlobal məxfilik prinsiplərinə və tətbiq olunan qanunlara, o cümlədən Aİ-nın Ümumi Məlumatların Qorunması Qaydalarına (GDPR) riayət edirik. Həmçinin məlumatları necə emal etdiyimizi və paylaşdığımızı tənzimləyən İcbari Korporativ Qaydalarımız və müqavilə razılaşmalarımız var.

**Sizdən nə gözlənilir:**

- Şəxsi məlumatları müvafiq qanunlara, məlumatların qorunması prinsiplərinə, Ericsson rəhbər sənədlərinə və digər təlimatlara uyğun olaraq toplamaq və emal etmək
- Şəxsi məlumatlar əldə etdiyimiz insanların məlumatlandırılmasını və bu məlumatların niyə toplanıldığını və emal edildiyini başa düşmələrini təmin etmək
- Şəxsi məlumatlardan yalnız qanuni biznes məqsədləri və işiniz üçün zəruri olan təsdiqlənmiş məqsədlər üçün istifadə etmək
- Şəxsi məlumatları yalnız bu onları qəbul və emal etmək səlahiyyətinə malik olan insanlar (Ericsson daxilində və xaricində, o cümlədən satıcılar, müştərilər və digər biznes tərəfdaşları) ilə təhlükəsiz şəkildə paylaşmaq
- Bütün şübhəli məlumat pozuntuları barədə Security Incident Management System-də (SIMS) məlumat vermək



**Learn more**

**Useful links**

- Reporting security and privacy incidents

**CoBE Relevant Documents:**

- See section 4.3. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Düzgün maliyyə nəzarəti təmin etmək və saxtakarlığın qarşısını almaq

## Bütün maliyyə məlumatlarını diqqətlə, dəqiq və dürüst şəkildə qeydə alırıq.

Fırıldaqçılığın və maliyyə pozuntularının qarşısını almaq üçün tədbirlər görməliyik. Biznes əməliyyatlarımızın şəffaf və dəqiq şəkildə qeydə alınmasını təmin etməliyik. Maliyyə qeydlərimizə yanlış və yanıldıcı məlumatlar daxil etmək, yaxud daxili nəzarətdən yayınmaq qəti qadağandır və qanunsuz ola bilər. Nə edəcəyinizə əmin deyilsinizsə və ya maliyyə ilə bağlı suallarınız və ya narahatlığınız varsa, hər zaman Group Function Finance & Common Functions və ya yerli maliyyə dəstəyinizə müraciət edin.

**Biznes uçotumuzun bütövlüyünü təmin etmək üçün icbari tələblərə dair nümunələri təqdim edirik:**

- Müştərilər və üçüncü tərəflərlə yazılı müqavilələr bağlamaq (heç vaxt şifahi müqavilə bağlamamaq)
- Müqavilələrimizin kommersiya əməliyyatının mahiyyətini əks etdirdiyinə əmin olmaq
- Qeyri-adi təşviqlər verməmək və ya Ericsson-un maraqlarına uyğun olmayan şərtləri qəbul etməmək
- İmzalama və xərcləmə səlahiyyətlərinə və müvafiq təsdiq prosedurlarına əməl etmək
- Bütün maliyyə əməliyyatlarını tətbiq olunan qaydalara və Ericsson Mühasibat Uçotu Direktivlərinə və Təlimatlarına uyğun olaraq qeydə almaq
- Heç vaxt qeyri-müəyyən və ya şübhəli xərclərin, yaxud keyfiyyətsiz sənədləşdirilmiş və ya natamam üçüncü tərəf qaimələrinin ödənilməsinə icazə verməmək
- Xərc hesabatlarının və dəstəkləyici qəbz və sənədlərin tam, doğru və dəqiq olmasını təmin etmək
- Korporativ kartlardan qanuni biznes xərcləri üçün istifadə etmək
- Dəqiq maliyyə hesabatlarını təmin etmək üçün lazım olan bütün doğru və dəqiq dəstəkləyici sənədləri təmin etmək
- Dəqiq mühasibat uçotunu təmin etmək üçün düzgün GL account istifadə etmək və xərclərimizi müntəzəm olaraq yoxlamaq.



**Learn more**

Useful links

- Ericsson Governance

CoBE Relevant Documents:

- See section 4.4. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Məsuliyyətli ünsiyyət qurmaq

## Biz şirkət adından yalnız müvafiq səlahiyyətimiz olduqda danışırıq və sosial şəbəkələrdə paylaşımlar edərkən diqqətli davranırıq.

Nüfuzumuz ictimai bəyanatlarımızın şəffaflığı, dəqiqliyi və uyğunluğundan asılıdır. Odur ki, düzgün məlumatların yayılmasını təmin etmək üçün tədbirlər görürük. Bu tədbirlər sosial mediada və ya Ericsson biznesinə aid məqalə, sənəd, nitq və ya digər bəyanatlarda ictimaiyyətə açıqladığınız ifadələrə şamil edilir. İfadə azadlığını təşviq edərkən hər birimiz daxili platformalarda dəyərlərimizə və Compass-ımıza uyğun olmayan sosial media yazılarına və ya şərhlərinə görə məsuliyyət daşıyırıq və cavabdeh ola bilərik.

**Sizdən nə gözlənilir:**

- Sağlam mühakimədən istifadə etmək və şirkət və/yaxud onunla əlaqəli insanlar haqqında məxfi məlumatları dərc etməmək və ya yerləşdirməmək
- Fikirlərinizin sizə aid olduğunu və (bunu etmək səlahiyyətiniz yoxdursa) Ericsson şirkəti adından danışmadığınızı aydın şəkildə bildirmək
- Ericsson-un nüfuzuna xələl gətirəcək və ya zərər verəcək heç nə post etməmək
- Ericsson-un daxili ünsiyyət və əməkdaşlıq platformalarından (məsələn, Teams, Yammer, SharePoint və Outlook) başqalarının fikirlərini nəzərə alaraq hörmətlə və inklüziv şəkildə istifadə etmək



**Learn more**

CoBE Relevant Documents:

- See section 4.5. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# 05

# Sosial və ekoloji fəaliyyətlərimiz

İnsan hüquqlarına hörmət etməyə, ətraf mühitə mənfi təsirləri azaltmağa və işlədiyimiz icmalarda sosial-iqtisadi inkişafı dəstəkləməyə sadiqik.


| | | |
|---|---|---|
| 5.1 | Məxfilik hüququnu və ifadə azadlığını təşviq etmək | 28 |
| 5.2 | Ətraf mühitin davamlılığı ilə bağlı öhdəliyimizi dəstəkləmək | 29 |
| 5.3 | Yerli icmaları gücləndirmək və dəstəkləmək | 30 |

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Məxfilik hüququnu və ifadə azadlığını təşviq etmək

## Təmin etdiyimiz texnologiyalarla bağlı ən önəmli iki insan haqqı olan məxfilik və ifadə azadlığı hüquqlarına hörmət edirik.

Avadanlıq, proqram təminatı, xidmətlərimiz və həllərimizin insanlara müsbət dəyişiklik gətirdiyinə ürəkdən inanırıq. Eyni zamanda, texnologiyamızdan potensial sui-istifadə riskini azaltmaq və minimuma endirmək üçün çalışırıq.

Həmçinin digər maraqlı tərəflərlə birlikdə fərdi və kollektiv şəkildə ifadə azadlığını və məxfiliyin qorunmasını qətiyyətlə müdafiə edirik.

**Sizdən nə gözlənilir:**

- Məhsulun təkmilləşdirilməsi, texnologiyamızın istifadəsi və satışı zamanı, eləcə də müştərilər və təchizatçılarla işgüzar münasibətlərdə məsuliyyətli qərarlar qəbul etməklə insan hüquqlarına hörmət etmək, onları təşviq etmək və dəstəkləmək
- Şəxslərin ifadə azadlığına və ya məxfilik hüququna təsir edə biləcək xarici sorğuları və tələbləri qiymətləndirmək və cavab tədbirləri görməzdən əvvəl bu sorğuların qanuni, mütənasib və zəruri olduğuna əmin olmaq
- Biznes fəaliyyətlərində texnologiyamızdan sui-istifadə risklərini nəzərdən keçirmək, bu cür riskləri azaltmaq üçün düzgün prosedurlara əməl etmək və bu risklərə məhəl qoyulmazsa və ya onlar lazımi səviyyədə həll edilməzsə, narahatlığı bildirmək
- Sui-istifadə əlamətlərinə uyğun tədbir görmək və müvafiq hallarda fəaliyyəti/əlaqəni dayandırmaq
- Texnologiyamızdan sui-istifadə ediləcəyini bildiyimiz və ya təsirləri azaltmaq üçün effektiv tədbirlərin icrasının mümkün olmadığı hallarda biznes fürsətlərini təqib etməmək



**Learn more**

Useful links

- Business and Human Rights Statement

CoBE Relevant Documents:

- See section 5.1. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Ətraf mühitin davamlılığı ilə bağlı öhdəliyimizi dəstəkləmək

## Ətraf mühitin davamlılığı proqramlarımız dünyada fərq yaradır və bütün maraqlı tərəflər üçün dəyər təmin edir.

Bütün əməliyyatlarımızda, portfelimizdə və cəmiyyətdə maraqlı tərəflər üçün müsbət təsir yaratmaq məqsədilə elmi əsaslı və üçqat (iqtisadi-sosial-ekoloji) yanaşmadan istifadə edirik. Bütün əməliyyatlarımızın və fəaliyyətimizin ətraf mühitə mənfi təsirini minimuma endirmək əzmindəyik. Ətraf mühitin davamlılığı bütün bölmələrimizi əhatə edən kompleks yanaşma olmalıdır. Ericsson işçi qüvvəsinin bir hissəsi olaraq biz də bu fikri paylaşırıq.

**Sizdən nə gözlənilir:**

- Əməliyyat və fəaliyyətlərimizin ətraf mühitə təsiri və məhsullarımızın davamlılığı ilə bağlı Ericsson-un ambisiya və hədəflərinin həyata keçirilməsinə töhfə vermək
- İşgüzar səyahətləri minimuma endirmək və hava səyahətindən əvvəl yerüstü nəqliyyatı nəzərdən keçirmək
- Rəqabət apardığımız bazarlarda ətraf mühitlə bağlı bütün müvafiq qanunlara, qaydalara və standartlara əməl etmək
- Dəqiq ətraf mühit hesabatlarını təmin etmək üçün lazım olan bütün dəstəkləyici sənədləri və məlumatları təmin etmək
- Ətraf mühitlə bağlı bütün məhsul tələblərinə, təlimatlara və tövsiyələrə əməl etmək
- Ətraf mühitə təsir göstərən hər hansı insident barədə Global Incident Reporting Tool (GIRT) vasitəsilə məlumat vermək



**Learn more**

Useful links

- Sustainability & Corporate Responsibility
- The Ericsson Lists of Banned and Restricted Substances

CoBE Relevant Documents:

- See section 5.2. of CoBE Relevant Documents

Bizim kodeks
Bizim insanlar
Bizim biznes
Bizim aktivlər
Bizim öhdəçiliyimiz

# Yerli icmaları gücləndirmək və dəstəkləmək

## Müsbət təsir yaratmaq üçün yerli icmaları gücləndirir və dəstəkləyirik.

Ericsson-un əhəmiyyətli təsir göstərə biləcək layiqli təşəbbüsləri dəstəkləmək strategiyasına uyğun olduqlarını təsdiqləmək üçün üzvlüklər, ortaq marketinq/birgə fəaliyyətlər, sponsorluqlar, ianələr və elmi əməkdaşlıqlar kimi töhfələri diqqətlə qiymətləndiririk. Töhfələrin hər hansı faktiki və ya potensial maraq toqquşmaları və ya uyğunsuz ödənişlər ilə əlaqəsinin olmadığına əmin olmaq üçün lazımi araşdırma aparırıq.

**Töhfə vermək üçün aşağıdakıları etməlisiniz:**

- Şirkət üzrə Töhfələr Prosesinə uyğun olaraq töhfələr üçün sorğu göndərmək
- Biznes təsdiqlərinin, uyğunluq qiymətləndirməsinin və qəbuledicinin nəzərdən keçirilməsinin, sənədləşdirilmiş müqavilənin, ödənişin icrasının və sübutların prosesə uyğun olaraq təqdim olunmasını təmin etmək
- Töhfələr ilə Ericsson-un müştəriləri, təchizatçıları, tərəfdaşlar, dövlət məmurları və ya Ericsson-un cari və ya keçmiş işçiləri arasındakı hər hansı əlaqəni açıqlamaq

Ericsson-un bütün tam ştatlı və yarımştat işçiləri yerli icmaları dəstəkləmək və cəmiyyətə müsbət təsir göstərmək arzularını dəstəkləyən Ericsson Könüllüləri proqramında iştirak etmək hüququna malikdir.



### Learn more

Useful links

- Contributions at Ericsson
- Ericsson Response

CoBE Relevant Documents:

- See section 5.3. of CoBE Relevant Documents

ericsson.com/cobe
internal.ericsson.com/cobe